# ƏFRASİYAB BƏDƏLBƏYLİ

## Milli baletimizin banisi

Bədəlbəylilər nəslinin mədəniyyətimizin inkişafında müstəsna xidməti var. Bu müqəddəs ocağın Azərbaycan musiqisinə bəxş etdiyi parlaq simalardan biri də Əfrasiyab Bədəlbəylidir.

Anadan olmasının 100 illiyini dövlət səviyyəsində qeyd edəcəyimiz Əfrasiyab Bədəl bəy oğlu Bədəlbəyli 1907-ci il aprelin 19-da Bakıda anadan olmuşdur. Görkəmli bəstəkar, dirijor, musiqişünas, liberettoçu kimi daim şöhrətin zirvəsində dayanan xalq artistinin həyat və yaradıcılığına ötəri bir nəzər salmaqla onun necə böyük şəxsiyyət və istedad sahibi olduğunu bir daha yəqin edirsən.

1930-cu ildə Azərbaycan Dövlət Universitetini, 1938-ci ildə Leninqrad (Sankt-Peterburq) Konservatoriyası nəzdində musiqi məktəbini bitirmişdir.

1930-cu ildən ömrünün sonunadək Azərbaycan Dövlət Opera və Balet Teatrının dirijoru olmuşdur. Repertuarında Azərbaycan və dünya bəstəkarlarının, o cümlədən, C.Verdinin «Aida» və «Riqoletto», C.Puççininin «Toska», Ü.Hacıbəyovun «Leyli və Məcnun», F.Əmirovun «Sevil», R.Mustafayevin «Vaqif» operaları, P.Çaykovskinin «Sonalar gölü», A.Qlazunovun «Raymonda» baletləri və s. əsas yer tutur.

Ə.Bədəlbəyli ilk milli Azərbaycan baleti – «Qız qalası»nın (1940) müəllifidir. «Qız qalası» üçün böyük emosional təsir qüvvəti və dramaturji kamillik, klassik balet formaları ilə milli musiqinin üzvi əlaqəsi səciyyəvidir.

O, «Xalq qəzəbi» (1941 – B.Zeydmanla birlikdə), «Nizami» (1948), «Söyüdlər ağlamaz» (1971) operalarının, simfonik poema və təntənəli marşın (hər ikisi - 1930) müəllifidir.

Bir çox dram tamaşasına («Hacı qara», «1905-ci ildə», «Fərhad və Şirin» və s.) musiqi bəstələmişdir.

«Qaraca qız», «Qızıl açar» baletlərinin və «Bahadır və Sona», «Söyüdlər ağlamaz» operalarının liberottosunu yazmışdır. «Seviliya bərbəri» (C.Rossini), «Daisi» (Z.Paliaşvili) operalarının mətnlərini ekviritmik tərcümə etmişdir.

Ə.Bədəlbəyli həm də Azərbaycan musiqi sənətinin təbliğçisi və publisist kimi tanınmışdır.

X.ASLANOVA